***Yeganə İSMAYILOVA***
**Filologiya elmləri doktoru, professor**
**Bakı Dövlət Universiteti**
**E-mail: yegane-n@mail.ru**
https://doi.org/10.59849/2309-7949.2023.1.60

# "KOROĞLU" EPOSU SÜJETİNİN TARİXİ KÖKLƏRİNƏ DAİR

**Açar sözlər:** Koroğlu, epos, süjet, semantika, spesifika, etnik

**SUMMARY**
**Yegane ISMAILOVA**
**ON THE HISTORICAL ROOTS OF THE PLOT OF THE "KOROGLU"**

The article examines the topic "On the historical roots of the plot of the epic "Koroglu". It is noted that the study of the historical semantics of the plot of the epic "Koroglu" means the study of the relationship between the epic and reality, epic and history. This relationship is complex and has serious epic specifics. Thus, the fact that the epic acts as a "memory" of ethnic thought inevitably gives it the role of "history", "reality", "past". The article concludes that the epic, no matter how close to reality with its world, in all cases is a product of epic-artistic thought.
**Keywords;** "Koroğlu", epic, plot, semantics, specifics, ethnicity

**РЕЗЮМЕ**
**ОБ ИСТОРИЧЕСКИХ КОРНЯХ СЮЖЕТА ЭПОСА «КЕРОГЛУ»**

В статье исследуется тема «Об исторических корнях сюжета эпоса « Кероглу ». Отмечается, что изучение исторической семантики сюжета эпоса «Кероглу» означает изучение взаимосвязи эпоса и действительности, эпоса и истории. Эти отношения сложны и имеют серьезную эпическую специфику. Тот факт, что эпос выступает «памятью» этнической мысли, неизбежно придает ему роль «истории», «действительности», «прошлого». В статье делается вывод о том, что эпос, как бы он ни был близок к реальности со своим миром, во всех случаях является продуктом эпико-художественной мысли.
**Ключевые слова**: Короглу, эпос, сюжет, семантика, специфика, этничность

"Koroğlu" eposu süjetinin tarixi semantikasının araşdırılması epos və gerçəklik, epos və tarix münasibətlərinin tədqiq edilməsi deməkdir. Bu münasibətlər isə mürəkkəb olmaqla ciddi epik spesifikaya malikdir. Belə ki, eposun etnik düşüncənin "yaddaşı" rolunda çıxış etməsi ona istər-istəməz "tarix", "gerçəklik", "olmuşlar" rolunu vermiş olur. Halbuki epos öz dünyası

ilə gerçəkliyə nə qədər yaxın olursa-olsun, o, bütün hallarda epik-bədii düşüncənin məhsuludur.

Qeyd edək ki, epos və tarix problemi elmin diqqət mərkəzində olmuş, bu məsələnin özünəməxsus semantikası ilə bağlı dəyərli tədqiqatlar aparılmışdır. Məhz bu problemi slavyan və türk eposu əsasında müqayisəli olaraq araşdırmış B.N.Putilov eposun təqdim etdiyi bədii gerçəkliklə real tarixi arasında olan əlaqələrin mürəkkəb quruluşunu nəzərdə tutaraq yazır: "Elə yerindəcə qeyd etmək lazımdır ki, epik dünya ilə real-tarixi dünya arasındakı münasibətlər birmənalı olmaması, ziddiyyətliliklə səciyyələnir. Münasibətlərin özünəməxsusluğu həmin dünyaların tərkib elementlərini ayrı-ayrılıqda araşdırdıqda xüsusilə üzə çıxır… Tarixin, məişətin, coğrafiyanın, əşya inventarının, insan davranışının istənilən gerçəkliyi epos kontekstində "öz" cizgilərini, mənalarını, səciyyələrini qazanmış olur, spesifik olan epik dünyaya keçir, real-empirik əlaqələrini itirir, yeni əlaqələr kəsb edir. Bu keçid və deyişmələr epik estetikanın ən əhəmiyyətli xüsusiyyətlərindən birini səciyyələndirir. Epos orbitinə düşmüş gerçəklik üçün artıq geriyə yol yoxdur (1, 7). Elə bunun üçün də B.N.Putilov eposun təqdim etdiyi epik cəmiyyət əsasında real cəmiyyətin bərpa edilməsini ümumnəzəri planda yanlışlıq sayır (1, 45). Başqa sözlə ifadə etmiş olsaq, müəllifin tədqiqatından göründüyü kimi, eposda təqdim olunmuş epik dünya və cəmiyyəti birbaşa real dünya və cəmiyyətin özü kimi qəbul etmək olmaz. Burada epikləşdirmə, obrazlaşdırma nəzərə alınmalıdır. Epos epik dünyanı, epik cəmiyyəti öz qanunları əsasında yaradır. Ancaq burada belə bir təbii sorğu meydana çıxır: eposda təqdim olunan dünyanın real dünya ilə əlaqələri nə səviyyədədir?

Bu sualın cavabı epos poetikasının öz qayda-qanunları ilə bağlıdır. Təbii ki, epos xalqın yaddaşı ilə bağlı olmaqla xalqın tarixinə isnad edir. Yəni epos öz qaynağını gerçəklikdən götürür. Bu səbəbdən, eposda gerçəklik var. Ancaq bu gerçəklik hərfi mənada real gerçəkliyin özü deyildir, obrazıdır. Məsələnin bu istiqaməti tədqiqatçılar tərəfindən nəzərə alınmayanda yanlış nəticələr qaçılmaz olur. Bəzən hər hansı bir dastanın bir variantının epik toponimikası əsasında həmin eposdakı hadisələrin cərəyan etdiyi real toponimika bərpa olunur. Burada epikləşdirmə səviyyəsi unudulur. Nəzərə alınmır ki, eyni süjetin başqa bir mühitdəki variantı artıq başqa mühitin toponimlərini təqdim edir. Bu, göstərir ki, epik gerçəklik əsasında real gerçəkliyin bərpası mürəkkəb məsələdir və burada real tarixlə onun eposda obrazlaşma nisbətləri nəzərə alınmalıdır. Belə bir nisbət, münasibətlər spesifikası epos poetikasının pozulmaz qanunlarındandır. Bunlara münasibətdə B.N.Putilov yazır ki, düşüncədən keçmiş, transformasiya olunmuş «reallıqla» eyni transformasiyaya uğramış «uydurma» (epik yaradıcılıq, təxəyyül – Y.İ.) vahid xəlitə yaradır… (1, 46). Yəni burada gerçəkliklə bədiiliyin qovuşması bir neçə qatdan keçir. Real tarix epikləşərkən, obrazlaşarkən artıq transformasiyaya uğramış olur. Yəni epos yaradıcısının real olaraq qavradığı dünya gerçəkliyin ona ən yaxın bir formasıdırsa, həmin qavranmış dünyanın epikləşdirilməsi artıq epik-bədii

transformasiyadır. Gerçəklik qavranır, sonra epikləşdirilir. Bu epikləşdirmə ilə hazır dastan strukturu qovuşur və «vahid xəlitə» yaradır.

B.N.Putilovun fikirlərindən də göründüyü kimi, eposun tarixi semantikasının araşdırılması zamanı epikləşdirmənin spesifikası nəzərə alınmalıdır. Yəni epik dünya gerçəkliyin obrazlaşmasıdır. Ümumiyyətlə, eposda nə varsa, istər əşyalar, istərsə də hərəkət, hamısı obrazlaşdırmanın məhsuludur. Epik reallıq əsasında tarixi reallığı araşdırmaq istəyən tədqiqatçı obrazla işlədiyini unutmamalıdır. Burada problemin daha bir incə tərəfi ortaya çıxır. Eposda obrazlaşan dünya hazır epik modelə transformasiya olunur. Yəni epos ilkin kosmoqonik miflər, mifoloji rəvayətlər (mifoloji eposlar), arxaik epos, klassik epos mərhələlərindən keçə-keçə gəlir. Hər mərhələ öz dövrünün gerçəkliyini müəyyən səviyyədə öz üzərinə «köçürür». Yəni hər dövrün öz reallığı obrazlaşaraq eposa transformasiya olunur. Bu səbəbdən, eposda konkret tarixi hadisələrin izlərini axtararkən nəzərə almaq lazımdır ki, bu izlər zahiri, aldadıcı ola bilir. Hər bir epik elementin altında daha qədim tarixi dövrlərin obrazlaşmış layları vardır. Bu qanunauyğunluq istisnasız olaraq "Koroğlu" eposunun tarixi semantikasının araşdırılmasına da aiddir. Belə ki, "Koroğlu"nun hər bir qolu, sanki gerçəkliyin özünü birbaşa təqdim edir. Tarixi şəxsiyyətlərin, yerlərin, təbiət obyektlərinin hamısı real təsəvvür bağışlayır. Ancaq tədqiqatçı nəzərə almalıdır ki, eposda bu "gerçəklik" həm də mifoloji "gerçəkliklə" (mifoloji obrazlar, toponimika və s.) yanaşı, qovuşmuş halda, "vahid xəlitədə" mövcuddur.

Əlbəttə, real tarixin eposda obrazlaşmasının qayda-qanunları nə qədər tipoloji olsa da, yəni nə qədər universallaşmış qanunauyğunluqlar təqdim etsə də, bütün hallarda milli spesifika özünü göstərməkdə davam edir. Yəni Azərbaycan eposunun öz spesifikası var. Real tarixin obrazlaşmasının ümumi qanunauyğunluqları Azərbaycan eposunda özünü təzahür etdirməklə yanaşı, burada tarixin obrazlaşmasının milli eposun öz epikləşdirmə keyfiyyəti ilə müəyyənləşən spesifikası da vardır. Başqa sözlə ifadə etmiş olsaq, rus eposunun, alman eposunun tarixi obrazlaşdırma səviyyəsi ilə, türk eposunun, o cümlədən, oğuz-türk eposunun tarixi epikləşdirmə səviyyəsi eyni deyildir. Burada milli tarixin, milli gerçəkliyin öz şəraiti də ciddi rol oynayır. Bu səbəbdən, belə hesab edirik ki, Azərbaycan-türk eposunda gerçəkliyin epikləşdirmə səviyyəsinin öz qayda-qanunları da vardır. Bu qayda-qanunlar universal qanunauyğunluqları inkar etməyərək, onun xüsusi götürülmüş səviyyəsini təşkil edir. Onda yenə də təbii olaraq belə bir sorğu meydana çıxır: Azərbaycan eposunun belə bir özünəməxsusluğu başlıca olaraq nədə ifadə olunur?

Azərbaycan eposu bütün poetik tutumu, epik estetikası ilə ümumtürk eposunun tərkib hissəsidir. Bu cəhətdən, ümumtürk eposunun minillər boyu özünü gerçəkləşdirmiş qanunauyğunluqları milli eposumuzda, o cümlədən «Koroğlu» eposunda özünü göstərməkdədir. Belə ki, şifahi ənənəyə söykənən cəmiyyətlərdə epos həm də elin «yaddaşı», yəni tarix kitabı rolunda olur.Türk etnosu da at üstündə doğulub at üstündə ölən, dünyanın ənginliklərinə can atan,

atdan düşüb, daş üstündə tarixini yazıb, yenə də atlanan etnos olaraq öz eposuna müqəddəs baxmış, onu gerçək tarixi saymışdır. Heç də təsadüfi deyildir ki, oğuzlar "Dədə Qorqud"u məhz "Qurani Kərim" kimi müqəddəs sayaraq, ona "Kitab" adı vermişlər. Buradan göründüyü kimi, türklərdə epos birbaşa gerçəkliyin özü sayılmışdır. Halbuki onların eposu da gerçək tarixin obrazlaşdırılmasıdır. Ancaq burada əsas olan həmin bu obrazlaşmaya münasibətdir. Öz eposunu birbaşa öz tarixi kimi qəbul edən xalq tarixinin əhəmiyyətli hadisələrini eposda "yaddaşlaşdırmağa", "tarixləşdirməyə" səy göstərir. Bütün bunları nəzərə aldıqda, belə bir elmi yanaşma mənzərəsi alınır.

"Koroğlu" eposunun tarixi semantikasının araşdırılması zamanı iki cəhət nəzərə alınmalıdır:

1) Eposun təqdim etdiyi dünya və cəmiyyətin real dünya və cəmiyyətin obrazı olması haqqındakı universal qanunauyğunluq;

2) Azərbaycan-türk eposunun real gerçəkliyi epikləşdirməsinin özünəməxsusluğu.

Bütün bu göstərilənləri nəzərə aldıqda, «Koroğlu» eposunda özünü ardıcıllıqla, davamlı olaraq nəzərə çarpdıran süjet və motivlər tarixi semantikası baxımından maraqlı mənzərə yaradır. Eposun tarixlə bağlılığı haqqında yazmış müəlliflər bu əlaqələrin intensivliyini qeyd etmişlər. "Koroğlu" eposundakı hadisələr ən üst qatında belə, XVI-XVII əsrlərdə Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələrlə səsləşir. Bunu eposun Orta Asiya variantlarının tədqiqi ilə məşğul olmuş araşdırıcılar da təsdiq edirlər (2, 190). Ancaq M.H.Təhmasibin sözləri ilə desək, "bu, heç də o demək deyildir ki, "Koroğlu" ancaq və ancaq bu əsrlərin əsas tarixi-ictimai hadisələrindən faydalanmaqla məhdudlaşmışdır. Şübhəsiz ki, ayrı-ayrı qolların, surətlərin yaradılmasında daha qabaqkı əsrlərdə baş vermiş əhəmiyyətli tarixi hadisələrin hafizələrdə yaşayan rəvayət və əfsanələrindən də qidalanma, istifadə az olmamışdır» (3, 130).

Göründüyü kimi, Azərbaycan eposunun bu görkəmli tədqiqatçısı "Koroğlu" eposundakı hadisələrin birmənalı izah edilməsini qəbul etmir. Alim XVI-XVII əsrlərdə baş vermiş tarixi hadisələrin eposdakı izlərini yalnız bu hadisələrlə bağlamır. Nəzərə alır ki, bu hadisələr eposun süjetindən görünən ən axırıncı obrazlaşma layıdır. Bu layın altında daha qədim tarixi hadisələrin obrazlaşma layları vardır. Fikrimizcə, tədqiqatçı bu yanaşmasında tamamilə haqlıdır; o, eposdakı hadisələrin tarixi semantika baxımından izahı zamanı professional folklorşünas mövqeyi nümayiş etdirir. Çünki eposun üst qatındakı hadisələr XVI-XVII əsrlərin üsyanları, üsyanda iştirak etmiş tarixi şəxsiyyətlərlə bəzən birbaşa səsləşir. Ancaq bu səsləşmə tədqiqatçını yanlış yola da sala bilər. Məsələn, Dəli Həsən, Eyvaz, Bolu bəy və başqa obrazların adları tarixi adlarla səsləşir. Təbii olaraq, burada gerçək şəxslərin obrazlaşması var. Ancaq bunlar həm də epik obrazlardır. Yəni dastandakı epik obrazların süjet hərəkətləri artıq real tarixi hərəkətlər yox, minillərdən bəri cilalana-cilalana gələn epik hərəkətlərdir. Həmin epik hərəkətləri birbaşa olaraq tarixi şəxsiyyətin adına yazmaq olmaz.

“Koroğlu” dastanından bəhs edən bütün folklorşünasları, etnoqrafları, ümumiyyətlə, xalq ədəbiyyatına bu və ya başqa münasibətlə müraciət edənləri Koroğlunun tarixi şəxsiyyət olub-olmaması düşündürmüşdür. Bu məsələ, doğrudan da, ciddi elmi problemdir. Çünki dastanın obrazlar sisteminin araşdırılması həm tarixi və epik səviyyələrin qarşılaşdırılmasını, qarşılıqlı münasibətlər spesifikasının açılıb ortaya qoyulmasını tələb edir. Dastanın bütövlükdə Koroğlu obrazı əsasında qurulduğunu, Koroğlunun dastandakı bütün hadisələrlə bağlı olduğunu nəzərə alsaq, onda deməliyik ki, burada ən əhəmiyyət kəsb edən obraz elə Koroğludur. Yəni Koroğlu obrazının tarixlə nə dərəcədə bağlı olması elə o biri obrazların və bütöv olaraq eposun tarixlə əlaqələrinin səviyyəsini açıb ortaya qoymuş olur.

Tədqiqatçıların əksəriyyəti belə bir fikri əsas götürür ki, “Koroğlu” XVI-XVII əsrlərdə Azərbaycanda baş vermiş kəndli hərəkatı ilə əlaqədar obrazdır.

M.H.Təhmasib göstərir ki, “Koroğlu” eposunun «ilk bünövrəsinin qoyulmuş olduğu… tarixi kəsim, heç şübhəsiz ki, XVI əsrin sonu, XVII əsrin əvvəlidir” (3, s.166). Bundan başqa, tədqiqatçılar göstərirlər ki, “Koroğlu” dastanı XVI əsrin sonu – XVII əsrin əvvəllərində Azərbaycanda baş vermiş Cəlalilər hərəkatı ilə sıx bağlıdır.

Tədqiqatçıların “Koroğlu” eposunu ardıcıl olaraq Cəlalilər hərəkatı ilə əlaqələndirməsi təsadüfi deyil. Eposun obrazları, epik hərəkətlərin baş verdiyi yerlər, epik hadisələr (döyüşlər, səfərlər və s.) buna əsas verir. Bütün bunlar tədqiqatçıları “Koroğlu” dastanını Cəlalilər hərəkatı ilə əlaqələndirməyə əsas verir. Ancaq burada bir məqam nəzərə alınmalıdır.

Hadisələrin cəlalilər hərəkatı ilə bağlılığı eposun bütövlükdə məhz bu hərəkatdan törədiyi demək deyildir. Yada salmaq lazımdır ki, «Kitabi-Dədə Qorqud» eposunun dağılması ilə “Koroğlu” eposunun qurulması bir çağa düşür (N.Cəfərov). “Dədə Qorqud” eposu dağılıb yox olmuş, yeni qəhrəmanlıq eposuna – “Koroğlu”ya transformasiya olunur. “Kitabi-Dədə Qorqud” bütün obrazlaşma səviyyəsi ilə oğuz tarixi gerçəkliyinin epikləşməsidir. Burada heç bir cəlalilər hərəkatından söhbət gedə bilməz. Ancaq “Koroğlu” eposundan cəlalilər hərəkatı, eləcə də XVI-XVII əsrlərin narahat siyasi-ictimai ruhu “görünür”. Məhz bu “görünənlərə” əsaslanan tədqiqatçılar haqlı olaraq eposda konkret dövrün tarixi hadisələrinin epik təzahürünü qeyd edirlər. Bütün bunlar bizi “Koroğlu” süjetinin tarixi semantikasını gerçək tarixi hadisələr fonunda götürüb nəzərdən keçirməyi tələb edir.

Tarixi məlumatlara görə, 1590-cı il İstanbul sülh müqaviləsinə əsasən Azərbaycan ərazisi Osmanlı və Səfəvi dövlətləri arasında bölünmüşdü. XVI əsrin sonu – XVII əsrin əvvəllərində Azərbaycanın və qonşu ölkələrin iqtisadi vəziyyəti çox ağır idi (4, 211). Qızılbaş-osmanlı münasibətlərinin dini don geydirilərək kəskinləşdirilməsi osmanlıların dəfələrlə Azərbaycana yürüş edərək yolu üstündə nə varsa, qarət və məhv etməsi ilə nəticələnmişdi. Digər tərəfdən isə, sultan qoşununun Azərbaycanda hərəkətini çətinləşdirmək üçün Səfəvilərin göstərişi ilə Türkiyə sərhədlərindən tutmuş Təbrizə qədər bütün yerlərin xarabazara çevrilməsi əhalinin maddi vəziyyətini hədsiz dərəcədə

pisləşdirmişdi. Şəhərlərin çoxu və kəndlər dağıdılmışdı, təsərrüfat həyatı durğunluq keçirirdi. Əhali zəbt edilmiş yerlərdən qaçır, kəndlilər öz ata-baba yurdlarını tərk edirdilər (4, 244). "Azərbaycanda kəndli kütləleri çıxılmaz vəziyyətdə qalmışdı. Əhalinin etirazı getdikcə daha kəskin xarakter alır və hər yerdə var-yoxdan çıxmış kəndlilərin üsyanları baş verirdi (5, 258).

XVI əsrin sonunda Osmanlı imperiyasının tərkibinə qatılmış Azərbaycan torpaqlarında işğalçı hakimiyyət orqanlarına qarşı üsyanlar Cəlalilər hərəkatı adı ilə məşhur olmuşdur. Bu hərəkat adını 1518-ci ildə Toqatda üsyan başçısı Şeyx Cəlaldan almışdır. Sonralar Türkiyənin müxtəlif vilayətlərində genişlənən kəndli hərəkatları Osmanlı tarixində "Cəlali fitrəti" adı altında yad edilmişdir (4, 246). XVI əsrin sonlarında Cəlalilər hərəkatı böyük vüsət almış və İ.P.Petruşevskinin göstərdiyi kimi, "tez bir zamanda Kürdüstana, Ermənistan və Azərbaycana da yayılmışdır" (5, 275). Bu hərəkat XVII əsrdə də davam etmişdir. XVII əsr tarixçiləri İ.Münşi, Ö.Çələbi və başqalarının əsərlərində bu dövrün hadisələri haqqında materiallar saxlanmışdır (6, 114-119).

Bütün bu tarixi hadisələrin formalaşmasının həmin çağa düşmüş «Koroğlu» eposuna təsiri şübhəsizdir. Epos – xalqın ruhunun ifadəsidir. Xalqın ruhu isə həmin vaxt azadlığa, mübarizəyə, qəhrəmanlığa köklənmişdi. Xalq təkcə öz qüvvəsi ilə deyil, eyni zamanda öz epik qəhrəmanı vasitəsi ilə də vuruşurdu. Epos burada tarixlə üst-üstə düşür, səsləşir, qovuşur. Bu qovuşma eposun bütün quruluş qatları boyu özünü təzahür etdirir. Heç təsadüfi deyildir ki, «Koroğlu» eposunda o dövrdə baş vermiş tarixi hadisələrin ruhu açıq-aydın görünməkdədir. Koroğlunun xotkar və paşalara qarşı apardığı mübarizə bütün hallarda sosial və siyasi mübarizə kimi təhlilə gəlir. Yəni dastanda sosial səciyyəli konflikt siyasi səciyyəli konfliktlə başabaşdır. Heç bir etnik konflikt, qarşıdurma yoxdur. Osmanlı paşalarına qarşı mübarizədə osmanlı hakimiyyətinin üzərində təşəkkül tapdığı osmanlı türk xalqına qarşı mübarizənin əsər-əlaməti yoxdur və ola da bilməz. Fikrimizcə, dastandakı hadisələrin gerçək tarixi hadisələrlə iki əlaqələnmə planı açıq-aydın boy verir:

1) Siyasi əlaqələnmə planı.

Koroğlunun İrandan Türkiyəyə gedən karvanları soyması, xotkarla, yəni osmanlı hakimiyyətinin mərkəzi fiquru ilə, o cümlədən əsasən osmanlı paşaları ilə mübarizə aparması dastan süjetinin tarixi semantikasının XVI-XVII əsrlərin gerçək siyasi hadisələri ilə, başqa sözlə ifadə etsək, Osmanlı-Səfəvi müharibələri, onların doğurduğu nəticələrlə bağlı olduğunu göstərir. Hər iki dövlət – Osmanlı Türkiyəsi və Səfəvi Azərbaycanı türk dövlətləri idi. Onların arasındakı mübarizə bir çox səbəblərlə bağlı olmaqla yanaşı, orta əsr feodal dövlətləri arasındakı siyasi mübarizələrdən heç nə ilə fərqlənmirdi. Başqa sözlə ifadə etsək, bu iki dövlət arasında nüfuz mübarizəsi gedirdi. Tarixi sənədlərdən gördyümüz kimi, osmanlı işğalının ağır nəticələri xalqda azad olmaq istəyi yaratmışdı. «Koroğlu» dastanı da məhz bu siyasi kontekstdə həmin dövrün hadisələri ilə əlaqələnir. Görkəmli Azərbaycan alimi Ə.Cəfəroğlu bu xüsusda yazır ki, bir ovuc azəri türkü kəndisindən qat-qat üstün düşmənə qarşı istiqlal mücadiləsinə atılmışkən Azərbaycanın … torpağının məhsullarından sayılan

"Koroğlu" da aşiq bir şevalye (cəngavərlik, igidlik – Y.İ.) saflığı ilə xanlar, şahlar və vəzirlərlə mücadiləsinə atılmışdı (7, 17).

2) Sosial əlaqələnmə planı.

"Koroğlu" dastanı çox güclü sosial zəmində XVI-XVII əsrlərin tarixi hadisələri ilə səsləşir. Belə ki, Koroğlu obrazı bir xilaskar qəhrəman kimi haqq uğrunda mübarizə aparır. Bu mübarizənin sosial xarakteri özünü onda göstərir ki, zülmkar insanın, yaxud ədalətsiz hərəkət edənin haradan olmasının fərqində deyildir. O, harada olursa-olsun, ədalətsizi, haqsız hərəkət edəni cəzalandırır. Elə bu üzdən, onun mübarizəsi xalqın haqq, ədalət haqqındakı arzularının ifadəsi olaraq tərənnüm edilir.

Koroğlunun mübarizəsinin sosial konteksti özünü onda təzahür etdirir ki, bu dastan mövcud olduğu bütün dövrlərdə özünün ədalət ideallarını dəyişməz olaraq saxlayır. Yəni onun qəhrəmanlığı istər XVI-XVII əsrlərdə, istər sonrakı dövrlərdə, istərsə də bizim günlərdə, bütün hal və məqamlarda xəlqi arzu və istəklərin ifadəsi olaraq qalır. Elə bunun üçündür ki, Ə.Cəfəroğlu Koroğlunun mübarizəsinin sosial xarakterini ictimai zülmün bütün milli formaları ilə əlaqələndirir. O yazır ki, "zaman və təfəkkür fərqləri bir tərəfə buraxılacaq olursa… "Koroğlu"nun mücadilə fəlsəfəsində xan – İran, şah – Rusiya, vəzir də – Osmanlı imperatorluğu olsa gərəkdir. Üzərinə bu qədər savaş yükü almaqla o, Azərbaycan tarixinin bu şevalyelik dövrəsini bütün çılpaqlığı ilə aydınlatmaqdadır" (7, 17).

"Koroğlu" süjetinin beynəlmiləl səciyyəli bu tarixi semantikası dastanın müxtəlif xalqlar arasında yayılma səbəblərindən birini təşkil edir. Bu, həm də bir məsələnin üzərinə işıq çiləyir. Bildiyimiz kimi, sovet dönəmi folklorşünaslıq araşdırmalarında "Koroğlu" dastanı sosial fonda geniş təhlil edilmişdir. Koroğlunun mübarizəsi bəylərə, xanlara, paşalara, şahlara, bir sözlə – zülmkarlara qarşı aparılan sosial-sinfi mübarizə kimi səciyyələndirilmişdir. Əlbəttə, istər bədii yaradıcılıqdan, istərsə də bədii təhlildən sosializm realizminin tələbləri ruhunda əsərlərin tələb edilməsinin normaya çevrildiyi şəraitdə dastandakı sosial fon çox qabardılmışdır. Ancaq bu fon, əslində, dastanda doğrudan-doğruya var. Koroğlu, həqiqətən, xalqın azad olmaq, azad yaşamaq, rahat ömür sürmək, bolluq, firavanlıq içərisində yaşamaq arzularının da ifadəçisidir. Çənlibeldəki sosial həyat – azad, bərabər əsaslı münasibətlər, şən ab-hava, qayğısızlıq, haqq-ədalətin heç vaxt pozulmaması, insanların azad həyat haqqındakı arzularının çin olması əslində xalqın sosial ədalətlə bağlı minilləri aşan arzu və istəklərinin ifadəsidir. Bura elə bir azad cəmiyyətdir ki, xotkar, paşa, xan qızları da öz firavan həyatlarını tərk edib Çənlibelə gəlirlər. İncidilən, yaşamağa heç nəyi olmayan insanlar bura üz tuturlar. Bu, onu göstərir ki, eposun sosial fonu çox qüvvətlidir və XVI-XVII əsrlərdə baş vermiş hadisələrin sosial fonu da dastanda öz əksini tapmışdır.

Qeyd edək ki, "Koroğlu" süjetinin tarixi semantikası göstərilən dövrdə Şah Abbas dönəmində baş vermiş tarixi hadisələri də epikləşmiş şəkildə özündə saxlayır. Bu, o dövr idi ki, Şah Abbasla sultanlıq arasında gedən uzunmüddətli müharibələr, o cümlədən yerli feodallar arasındakı qanlı

çəkişmələr xalqın vəziyyətini pisləşdirmişdi. Şah Abbasın Səfəvi hakimiyyətini farslaşdırmağa başlaması, paytaxtı Qəzvindən İsfahana köçürməsi, azərbaycanlı sərkərdə və ordu başçılarını iranlı zadəganlarla əvəz etməsi, Azərbaycan türkcəsinin əvəzinə fars dilinin dövlət dili kimi işlədilməsi xalqda milli səciyyəli narazılıqlar, qəzəb yaradırdı. Digər tərəfdən, Şah Abbasın Osmanlı Türkiyəsinin zəbt etdiyi Səfəvi torpaqlarını geriyə alması osmanlıların Azərbaycana böyük qoşun hissələri göndərməsinə səbəb olurdu. Beləliklə, Səfəvi İran qoşunları ilə Osmanlı qoşunlarının vuruşmaları ölkəni viran etmiş, iqtisadiyyatı iflic hala salmışdı.

XVII əsrin əvvəllərində Şah Abbasın iqtisadi siyasəti Cəlalilər üsyanının daha da güclənməsinə səbəb olmuşdu. Belə ki, 1610-cu ildə Azərbaycanda, 1614-1615-ci illərdə Gürcüstan və Şirvanda, 1616-cı ildə Səlmasda, 1625-ci ildə Qarabağda, 1629-cu ildə isə Talışda baş verən üsyanları (5, 275) nəzərə alsaq, orta əsr mənbələri tərəfindən belə qeydə alınmış bu üsyanların simasında xalq hərəkatının nə dərəcədə vüsət almasını təsəvvür etmək olar. Tarixi ədəbiyyatdan onu da əlavə edək ki, Azərbaycanda genişlənən kəndli hərəkatı 1610-1630-cu illərdə son dərəcə kəskin xarakter almışdı (8, 271).

Fikrimizcə, o dövrün sosial, siyasi, iqtisadi həyatında baş vermiş, bilavasitə xalqın hərəkatını nəzərdə tutan, onun qəzəb və nifrətinə səbəb olan bu hadisələr öz izlərini tarixi-semantik lay kimi "Koroğlu" dastanında saxlamışdır. Nəzərə almaq lazımdır ki, xalq hərəkatı, kəndli üsyanları insanların şüurunda psixoloji gərginliyin təzahürüdür. Sadə həyat adamları üsyana qalxırsa, bu, onların qəzəb, nifrət, mübarizə ruhunun dirçəlişindən, oyanışından xəbər verir. Mübarizə döyüş ruhunun şüurlara hakim kəsilməsi deməkdir. Unutmaq olmaz ki, ənənəvi düşüncə ilə yaşayan orta əsr insanının döyüş ruhu onun qəhrəmanlıq yaddaşı ilə qırılmaz vəhdətdə olur. Yəni döyüş, mübarizə ruhunun oyanması xalqın yaddaşındakı qəhrəmanlıq eposunun da hərəkətə gəlməsi deməkdir. Bunun belə olması dastandan görünür. Eposda kəndli hərəkatı ilə bağlı bir çox ünsürlər mühafizə edilib saxlanmışdır. Bunlar "Koroğlu"nun XVI-XVII əsrlərdə Azərbaycanda baş verən kəndli hərəkatının təsiri ilə yenidən inkişaf etdiyini söyləməyə əsas verir. Yəni tarixi hadisələr epik süjeti fəallaşdırır və epik süjet sürətli inkişaf keçirərək tarixə qoşulur; epos xalqla birlikdə hərəkət edir, mübarizə aparır. Bu isə təsadüfi olmayıb, epik düşüncənin öz xarakteri ilə bağlıdır.

"Koroğlu" dastanı qəhrəmanlıq eposu kimi özündən əvvəlki eposun ("Kitabi-Dədə Qorqud"un) transformasiya törəməsidir. Əvvəlki epos – oğuz eposudur; oğuz dövrü, oğuz ruhu burada açıq-aşkar görünür. "Koroğlu" isə yeni dövrün – ondan sonrakı dövrün eposudur. "Dədə Qorqud" oğuz dövrünün qəhrəmanlıq ruhu ilə qırılmaz bağlılıqda olduğu kimi, "Koroğlu" eposu da öz dövrü ilə belə qırılmaz bağlılıqdadır. "Koroğlu" dastanının istər Azərbaycan folkloru, istərsə də başqa xalqların folkloru kontekstində çox nəhəng hadisə olması bu eposun hansısa bir dövrdə xüsusi inkişaf keçirdiyini göstərir. Yəni "Koroğlu" eposunun xüsusi inkişafının, nəhəngliyinin, əzəmətinin xüsusi şəraiti olmalı idi. Düzdür, epos uzun əsrlərdən bəri cilalana-cilalana, böyüyə-

böyüyə gəlir. Ancaq bu böyümə onun tarixi əzəməti haqqında yaddaş olmadan mümkün deyildi. Elə bu üzdən, belə bir qənaətə gəlmək olur ki, "Koroğlu" dastanı XVI-XVII əsr tarixi hadisələrinin təsiri altında epik böyümə keçirmişdir. Onda, təbii olaraq, belə bir sorğu ortaya çıxır ki, "Koroğlu" süjetinin tarixi semantikası nəyə görə XVI-XVII əsrlərin hadisələri ilə bağlı olmalıdır?

Epos poetikasına görə müəyyən bir qanunauyğunluq var ki, hər bir dövr epos üzərində təsirini saxlayır. Yəni hər bir dövrün xalq yaddaşına təsir edə biləcək hadisələri bu və ya digər şəkildə eposda öz epikləşməsini tapır. "Koroğlu" dastanı da istisna təşkil etmir. Dastanın epik dünyası, epik cəmiyyəti və s. birbaşa reallığa ünvanlanıb. Buradakı yer adları, təbiət obyektləri hamısı real və canlıdır. Bu epik gerçəkliyin XVI-XVII əsrlərin tarixi hadisələri ilə səsləşməsi ondan görünür ki, eposun bütün tarixi izləri arasında ən güclü reallıqlar sözü gedən dövrə aiddir. Bura epik qəhrəmanların adlarından tutmuş, döyüşlər, yer adları, milli məişət göstəriciləri və s. aiddir. Koroğlunun mübarizəsi, əsasən, xotkara, osmanlı paşalarına qarşıdır və s. Bunun nəticəsində belə bir qənaətə gəlmək olur ki, "Koroğlu" süjetinin tarixi semantikasında epikləşmiş gerçəklik layları içərisində ən qüvvətli və aparıcısı XVI-XVII əsrlərin hadisələridir.

"Koroğlu" eposunun göstərilən dövrün hadisələri ilə bağlı olmasını tarixi qaynaqlar da təsdiq edir. Hətta bu faktlar o qədər güclüdür ki, Koroğlunun tarixi şəxsiyyət olması fikri də irəli sürülmüşdür. Tarixi ədəbiyyatda bu fikri ilk dəfə İ.P.Petruşevski irəli sürmüşdür (8, 329). Onu da qeyd edək ki, dastanda bir çox qəhrəmanların adları mənbələrdə tarixi şəxsiyyət adları ilə uyuşur. Koroğlunun yaxın silahdaşları Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər və Tanrıtanımaz tarixi qaynaqlarda Cəlalilərin geniş şöhrətə malik olmuş rəhbərləri arasında yad edilir. Tarixi qaynaqlarda göstərilir ki, Dəli Həsən qardaşı Qara Yazıcının əməlini davam etdirərək 1602-ci ilin fevralında Şərqi Anadoluda Cəlalilər hərəkatına rəhbərlik etməyə başlamışdır (8, 249). Q.Daranaxsi Canpoladoğlu Dəli Həsənin Ərzincanda məğlub edildiyini göstərmişdir (9, 10-15).

Dastanda Giziroğlu Mustafa bəyin adı qəhrəmanlar sırasında gedir. Tarixi qaynaqlardan bəlli olur ki, müstəqil surətdə fəaliyyət göstərən Cəlali dəstələrinin 23 rəhbəri arasında onun adı şərəfli yer tutur. Q.Daranaxsi Giziroğlunun III Sultan Muradın əmri ilə 1591-ci ildə tutularaq, İstanbulda üzərinə neft tökülüb yandırıldığını qeyd etmişdir (9, 10-15). Qeyd edək ki, Cəlalilərə qarşı belə amansız cəza tədbirləri "Koroğlu" süjetində öz izlərini saxlamışdır. Paşa və xanların əllərinə düşən Koroğlu dəlilərini onlar amansız şəkildə cəzalandırmağa çalışırlar; hətta dərilərinin soyulması haqqında əmr verirlər. Bu, tarixin epikləşməsinin özünəməxsus obrazıdır. Epos tarixi bir foto olaraq yaddaşlaşdırmır, onu obrazlaşdırır. Yəni Cəlalilərə qarşı aparılmış amansız cəza tədbirləri eposda paşa və xanların qəddarlıqlarının obrazlaşması şəklində öz əksini tapmışdır. Bu, epos poetikasının özünəməxsus xüsusiyyətidir

və tarixi semantikanın araşdırılmasında obrazlaşmanın bu səviyyəsi hökmən nəzərə alınmalıdır.

Orta əsr tarixçisi İsgəndər bəy Münşi Kosa Səfərin də Cəlali üsyanı rəhbərlərindən biri olduğunu göstərmişdir (4, 249). Onun məlumatından aydın olur ki, öncə Cəlalilər hərəkatında iştirak edən, sonralar Ərzurum hakimi olan Kosa Səfər Osmanlı ordusunun Azərbaycana yürüşündə iştirak etmiş, osmanlıların 1605-ci il noyabrın 7-də Sufiyan yaxınlığındakı məğlubiyyətindən sonra əsir alınmış və edam olunmuşdur (4, s.250).

Eposdakı Ərəb Reyhanın da tarixi şəxsiyyət olması haqqında faktlar vardır. A.Nəbiyev göstərir ki, "Dəli Həsən və Ərəb Reyhanla əlaqədar epizodlar başqa türkdilli variantlarda olduğu kimi, özbək variantında da mühafizə olunmuşdur. Odur ki, Koroğlunun tarixi şəxsiyyət olduğundan danışarkən onun Eyvaz və tarixi şəxsiyyət olduğu güman edilən digər qəhrəmanlarla əlaqəsi məsələsini də qeyd etmək lazımdır" (10, 55). Başqa sözlə ifadə etsək, A.Nəbiyev Koroğlu dastanındakı bir sıra obrazların və süjetin tarixiliyi fonunda digər obrazların da tarixiliyini qəbul etməyin epos poetikası kontekstində mümkünlüyünü ifadə etmişdir. Bu, qanunauyğunluqdur. Çünki süjetdəki tarixi lay müəyyən bir sistem təşkil etməlidir. Əks halda, bu artıq özünü büruzə verən sistem hadisəsi yox, sırf fraqmentar hadisədir. Ancaq eposun süjetinin tarixi semantikası güclü lay təşkil edir. Bu fonda digər obrazların da tarixi cizgilərinin olması qəbuledilləndir.

Eyvazın da tarixi şəxsiyyət olması haqqında qaynaqlarda məlumatlar vardır. Məlumdur ki, 1571-1573-cü illər Təbriz üsyanında şəhər yoxsulları, sənətkarlar, pəhləvanlar iştirak etmişlər. Həsən bəy Rumlu pəhləvanlar hərəkatının başçılarından birinin adının Əvəz olduğunu yazır (11, s.221). İ.P.Petruşevski bunun Eyvaz ola biləcəyi fərziyyəsini irəli sürür. Çox ehtimal ki, Təbrizdə baş verən bu üsyan dastanda epikləşmişdir. Qəssabların əsas rol oynadığı bu üsyan başçılarından birinin adı Əvəz – Eyvaz olmuşdur. Dastanda da Eyvaz həm bir pəhləvan, həm də Qəssab Alının oğludur. Belə olduqda, dastandakı Eyvazın tarixi Əvəz – Eyvazla bağlı olmasını irəli sürən tədqiqatçılar haqlıdır. Dastan süjetinin tarixi semantikası baxımından Əvəz-Eyvaz paralelliyi bir neçə halla şərtlənir:

Eyvazın sərkərdə statusu.

Təbriz üsyanında rəhbərlərdən biri olan Əvəz-Eyvaz dastanda da dəlilərin rəhbərləri sırasındadır. O, Koroğlunun sıravi dəlisi olmayıb onun sərkərdələrindəndir.

Eyvazın qəssab motivi ilə bağlılığı.

Təbriz üsyanında qəssablar xüsusi rol oynamışdır. Eyvazın Çənlibelə gətirilməsi dastanın, demək olar ki, bütün variantlarında qəssablıqla bağlı olur. Eyvaz qəssab oğludur. Bu, təsadüfi deyildir. Əgər burada təsadüfilik olsa idi, onda qəssablıq motivi variantlarda bu dərəcədə aparıcı şəkildə özünü göstərməzdi. Demək, dastandakı motiv öz semantik impulsunu reallıqdan götürmüşdür.

c) Eyvaz-Əvəz adının leksik paralelliyi.

"Koroğlu" eposu istər türkdilli, istərsə də türkdilli olmayan xalqlar (kürdlər, taciklər və s.) içərisində yayılmışdır. Bu kontekstdə Eyvaz adının Eyvaz – Avaz leksik variasiyası yaranmışdır. Elə buna görə də, hansı dilin leksikasını təqdim etməsindən asılı olmayaraq, Əvəz-Eyvaz bir adın variativ sırası ola bilir.

Deyilənləri tarixi bilgilər də təsdiq edir. İ.P.Petruşevski Venesiya elçisi D'Allesandrinin 1571-1573-cü illər Təbriz üsyanını gözləri ilə görməsi haqqında yazır və bu üsyanın ət qəhətliyi ilə əlaqədar olduğu, buna görə də hərəkatda qəssabların mühüm rol oynadığı haqqında məlumat verir (11, 223). Dastanın "Türkmən" səfəri qolundakı Eyvazın Qəssab Alının oğlu olması, bəzən də Qəssaboğlu adlanması (12, 114-142), A.Xodzko variantında qəssab Mir İbrahimin oğlu olması, özbək, türkmən, tacik və b. Orta Asiya variantlarında qəssab oğlu olması, türk variantlarında yenə qəssab, yaxud qəssabbaşı oğlu olması, eyni zamanda, bütün bu variantların, demək olar ki, hamısında Eyvazla əlaqədar olan qol, məclis olması və dastanlarda ət qəhətliyindən danışılması Eyvaz haqqında deyilənlərin (13; 14; 15) tarixi qaynaqlarda verilən məlumatlara uyğunluğunu göstərir.

M.H.Təhmasibin fikrincə, əgər "Koroğlu" eposu doğrudan da XVII əsrin birinci yarısında baş vermiş Cəlalilər üsyanı ilə bağlı yaranmağa başlamışsa, 25-30 il əvvəl baş vermiş bu üsyanın əsas başçılarından biri olan Eyvaz haqqında xalq içərisində yaşayan rəvayətlərdən, xatirələrdən, epizodlardan, sərgüzəştlərdən də istifadə edilə bilərdi. Ola bilsin ki, Həsən bəy Rumlunun adını çəkdiyi pəhləvan Eyvaz qəssab, yaxud qəssab oğlu imiş (3, 133). Bu mənada, Təbriz şəhərini iki il əlində saxlamış bu el qəhrəmanı epikləşərək Eyvaz surətinin əsasını təşkil edə bilərdi. Və yaxud, eposun əsasını yaradan ilk dastançı öz epik qəhrəmanının obrazını yaratmaq üçün bu üsyan haqqında xalq arasında dolaşan əfsanələrdən, rəvayətlərdən də istifadə etmişdir (3, 133).

Bundan başqa, XVII əsrdə Azərbaycana səyahətə gələn Övliya Çələbinin "Səyahətnamə" əsərində Koroğlunun Azərbaycanda baş verən Cəlalilər hərəkatının iştirakçısı olduğu qeyd olunur (6, 114-119). Burada Övliya Çələbi üç yerdə Koroğlu haqqında danışır. İki yerdə Koroğlunun adını həmin dövrün aşıq və şairlərindən danışarkən çəkir. Üçüncü dəfə isə onun adını məşhur bir qaçaq, yenilməz bir qəhrəman kimi çəkir. Həmin məsələni ilk dəfə tədqiq edən F.Fərhadovun göstərdiyi kimi, bu son məlumatdan "Koroğlu" tədqiqatçıları istifadə etməmişlər" (9, 10).

Məşhur koroğluşünas alim X.Koroğlu da dastanın süjetinin əsas obrazı olan Koroğlunun epik semantikasının tarixi hadisələrlə bağlı olmasını yazmışdır. O qeyd edir ki, Türkiyədə əldə etdiyi arxiv sənədlərində Koroğlu XVI əsrin sonlarında Türkiyə ərazisində yaşamış üsyançı və şair kimi təqdim olunur (16, s.143).

Qeyd edək ki, dastanda müəyyən informativ səciyyəli məlumatlar vardır. Məsələn, "Koroğlu təkə tayfasından idi" cümləsi obrazı ciddi olaraq tarixi kontekstə gətirmiş olur. Bəllidir ki, təkəlilər hələ XV əsrdə yerli Azərbaycan-türk tayfalarından idi. Bu dövrdə Şah Abbas etibar etmədiyi təkəlilərə ağır

divan tutmuşdur. Bu hadisə “Koroğlu” eposu ilə səsləşən kəndli hərəkatı ərəfəsində (1596) baş vermişdir. Bundan bəhs edən M.H.Təhmasib yazır ki, “Koroğlunun, doğrudan da, azərbaycanlı tayfalarından biri olan təkəlilər içərisindən çıxmış olması tamamilə mümkündür” (17, 12). Təkə etnoniminin Koroğlunun tayfa mənsubiyyəti kimi ardıcıl olaraq təkrarlanması eposun bu səviyyədə tarixi kontekstini ortaya qoymuş olur. Tarixi hadisələrin tutuşdurulması və bu prosesdə təkə tayfasının da iştirakı Koroğlu süjetinin tarixi semantikasını yalnız gücləndirmiş olur.

Burada epos poetikası ilə bağlı bir məsələ nəzərə alınmalıdır. Tarixçi İ.P.Petruşevski yazır ki, “tarixi şəxsiyyət olan Koroğlunun hansı məsələ ilə əlaqədar olaraq xalq dastanının qəhrəmanı olduğunu söyləmək çətindir… Ola bilsin ki, Cəlalilər hərəkatının üzvlərindən biri özünə Koroğlu ləqəbini götürmüş və sonradan xalq əfsanəsinin qəhrəmanı kimi əfsanələşdirilmişdir” (18, 329).

Qeyd edək ki, İ.P.Petruşevskinin bir tarixçi alim olaraq söylədiyi bu fikir tarixi aspektindən daha çox, folklorşünaslıq, epos poetikası aspekti ilə diqqət çəkir. Göründüyü kimi, tarixçi alim epos qəhrəmanı ilə tarixi şəxsiyyət arasında birbaşa, hərfi eyniləşdirmə aparmaqdan uzaq olmuş, predmeti bunu tələb etməsə də, eposun tarixlə bağlılığının mexanizmini təsəvvür etməyə çalışmışdır. Bu əsasda o, güman etmişdir ki, Koroğlu ləqəbli qəhrəmanlardan biri epik ənənəyə təkan verə bilərdi.

Öz növbəmizdə bildirmək yerinə düşür ki, tarix və epos əlaqələri çox mürəkkəbdir. Bunun bir sxem üzrə baş verməsi ağlabatan deyil. Yəni qarşılıqlı əlaqələr mürəkkəb quruluşa malikdir. “Koroğlu” dastanının öz epik ruhu ilə XVI-XVII əsrlərin qəhrəmanlıqlarla dolu ruhunun üst-üstə düşməsi faktdır. Bu, inkar olunmur. Ancaq tarix və eposun qarşılıqlı təsirlərinin yalnız birtərəfli istiqamət üzrə gerçəkləşməsi eposun yaşam qanunlarına ziddir. Təsir qarşılıqlı baş verir. Epos xalqa, xalq eposa təsir edir. XVI-XVII əsrlərdə üsyanlar vaxtı qəhrəmanlıq ruhu gərginləşmiş xalq kütlələrinin öz epos qəhrəmanlarından güc alması reallıqdır. Ancaq bununla bərabər, real xalq qəhrəmanlarının göstərdiyi igidliklərin dövrün nəğməkarları tərəfindən tərənnüm olunması da bir reallıqdır. Dövrümüzə çox yaxın olan qaçaq dastanlarını, xüsusilə, “Qaçaq Nəbi” eposunun yaranmasını xatırlayaq. Onun qəhrəmanlıqları xalqın dilində əzbər olmuş, aşıqların yaradıcılığında tərənnüm olunmuşdur. Unutmaq olmaz ki, professional sənətkarlar – aşıqlar Qaçaq Nəbi obrazını yaradarkən Azərbaycan eposunun obrazlaşdırma ruhuna uyğun hərəkət edirdilər. Yəni xalq minillər boyu öz qəhrəmanlarını necə öymüşdüsə, necə obrazlaşdırmışdısa, indi də eləcə epikləşdirirdi. Bu baxımdan, bizim fikrimizə görə, “Kitabi – Dədə Qorqud” eposunun oğuz abidəsi kimi öz fəaliyyətini dayandırması ilə Azərbaycan qəhrəmanlıq eposu yeni silsiləyə – “Koroğlu” epik silsiləsinə transformasiya olunmuşdur. Həmin dövrdə baş vermiş və qəhrəmanlıq ruhu ilə xüsusi seçilən kəndli üsyanları eposun təşəkkülünü, formalaşmasını, həm də bunu xüsusi olaraq qeyd edirik ki, epik “böyüməsini” təşkil etmişdir. Bütün bu

deyilənlər əsasında daha bir sorğu meydana çıxır: Azərbaycan "Koroğlu" eposu süjeti niyə öz tarixi semantikası ilə belə seçilir?

Bu sorğunun cavabı yenə də tarixi gerçəkliyin özünə söykənir. Azərbaycan "Koroğlu"su sıx şəkildə tarixi hadisələrlə bağlıdır. Baş vermiş tarixi hadisələr eposun tarixi aktuallığını gücləndirmiş və XVI-XVII əsrlərdə "Koroğlu" eposu xalq hərəkatının mənəvi qaynağına çevrilmişdir. B.Karrıyev təsadüfi olmayaraq yazır ki, "müxtəlif xalqlar içərisində yaranmış variantlardan fərqli olaraq Azərbaycan variantı ideya-bədii və Cənubi Azərbaycanda baş verən hadisələri əks etdirmək baxımından çox fərqlənir. Cənubi Azərbaycan versiyası bütün digərlərinə nisbətən daha tarixidir" (14, 45). Prof. A.Nəbiyev onun fikrinə bir qədər dəqiqləşdirmə gətirərək əlavə edir ki, "Cənubi Azərbaycan" sözü coğrafi mənada işlənmişdir, çünki bu, Azərbaycan xalqının yaratdığı vahid bir dastandır (10, 30-31).

Hər iki koroğluşünas alimin fikri bizim dastan süjetinin tarixi semantikası ilə bağlı qoyduğumuz soruya cavab verir. Nə B.Karrıyevin dastanın tarixiliyinin Cənubi Azərbaycan versiyasında daha qüvvətli olması, nə də A.Nəbiyevin bu tarixiliyi bütöv Azərbaycan eposuna aid etməsi təsadüfi deyil. B.Karrıyevin fikrinin həqiqiliyi onda üzə çıxır ki, eposun tarixilik nüvəsi Azərbaycanla bağlıdır. Cənubi Azərbaycan həmin tarixiliyin birbaşa qaynaqlaşdığı məkandır. A.Nəbiyevin fikrinin obyektivliyi onda üzə çıxır ki, o, bir eposşünas alim olaraq tarixiliyin təkcə lokal – məhəlli kontekstini yox, ümümazərbaycan miqyasında tarixi semantikasını müşahidə edir. Bu tarixi semantika epik səciyyəlidir. Yəni burada tarixlə epizmin vahid obrazlaşma müstəvisində olması unudulmamalıdır. Bunu "Koroğlu" eposunun təkcə XVI-XVII əsrlərin qovşağındakı hadisələrlə səsləşməsi yox, sonrakı dövrlərdə səsləşməsi də sübut edir.

Koroğluşünas F.Fərhadov türk alimi M.Nəimanın Türkiyənin 70 illik tarixindən bəhs edən tədqiqatında XVII əsrin ikinci yarısında Koroğlu adlı qaçaq haqqında faktlar olduğunu yazır. Həmin kitabda IV Məhmədin (1648-1692) hökmdarlığı illərində Koroğlu adında bir qaçağın olduğundan, onun yerli paşalarla mübarizədə qalib gəlməsindən və böyük şöhrət qazanmasından danışılır. Həmin kitabda qeyd edilir ki, Bolu şəhərində Süleyman ağa adlı birisi öz dəstəsi ilə qəfildən gecə Koroğlunun üstünə hücum edir, onu ayağından güllə ilə yaralayaraq İstanbula gətirir. Koroğlu vəzir Məlik Əhməd paşanın qabağında deyir: "Biz şəhərləri dağıtmamış, adamlara hücum etməmişik, ancaq zülm və istismarlardan qaçmaq istəmişik". Kitabda daha sonra Koroğlunun necə asıldığından və onun yoldaşlarının müxtəlif yerlərdə öldürüldüyündən danışır (9, 10-11).

Bu fakt Epos – Tarix münasibətlərinin qarşılıqlı təsirlərinin üzərinə işıq salır. Göründüyü kimi, XVII əsrdəki qaçaq özünə Koroğlu ləqəbi götürür. Bu, xalqın öz eposunun, öz qəhrəmanının ruhu ilə yaşadığını göstərməklə, epos və gerçəklik münasibətlərinin qarşılıqlı təsirlər baxımından tək istiqamətli olmadığını nümayiş etdirir. Heç təsadüfi deyildir ki, Koroğlunun adı qaçaqlar və cəngavərlər üçün bir nümunə olmuşdur. Yəni zülmə qarşı çıxıb, at belinə

minənlər Koroğlu ruhuna sığınmış, onun yaddaşlarda yaşayan qəhrəman obrazından güc almışlar.

Övliya Çələbi XVII əsrin ortalarında Türkiyədə yaşayan Qara Heydəroğlu, Qatırçıoğlu, Gürcü Nəbi və s. bu kimi Cəlalilər hərəkatının fəal iştirakçılarının adlarını çəkir (9, 10-11). Bu, onu göstərir ki, epos tarixi hadisələrlə hərfi mənada yox, obrazlaşdırma kontekstində, epikləşdirmə süzgəcindən keçdikdən sonra qovuşur.

“Koroğlu” dastanı süjetinin tarixi semantikası dastanın nə vaxt yaranması, formalaşması kimi elmi problemə də diqqət yetirməyi tələb edir. Dastanın ingiliscədən rus dilinə tərcüməsinin 1856-cı il “Kavkaz” qəzetindəki çapında Koroğlunun şəxsiyyətinə dair haqlı olaraq yazılır: “Asiyada və ümumiyyətlə Şərqdə elə bir guşə tapmaq olmaz ki, bu ad (Koroğlu adı) orada məşhur olmasın” (14, 26). Bu, həm Koroğlunun epikləşməsinin, epik obraz, qəhrəman olaraq xalq yaddaşındakı mövqeyinin miqyasını, həm də bağlı olduğu tarixi hadisələrin epik yaddaşa verdiyi təkanın miqyasını göstərir. M.H.Təhmasib yazır ki, “Koroğlu” dastanı qədim epos, süjet və motivlərin tarixi hadisələrin yaratmış olduğu epizodlarla qaynayıb-qovuşmasından əmələ gəlmişdir. Daha aydın deyilsə, “Koroğlu” eposunun ayrı-ayrı qollarını yaratmış aşıqlar qədim xalq ədəbiyyatı xəzinəsindən yüksək dərəcədə istifadə etmişlər (19, 11-12). Bu proses də daha çox XVI-XVII əsrlərin tarixi hadisələri ilə qaynaqlanır. Deməli, dastanın bir epos olaraq hazırkı tutumu və əzəmətinin təşəkkül dövrü, formalaşma, böyümə dövrü də elə bu vaxta aiddir.

Təsadüfi deyildir ki, tədqiqatçılar, A.Nəbiyevin sözləri ilə desək, “Koroğlunun tarixi şəxsiyyət olduğunu inkar” etməmişlər (10, 27). XVI əsrin sonu – XVII əsrin əvvəllərində baş vermiş tarixi hadisələr reallıqdır və epos bu reallıqla müxtəlif səviyyələrdə bağlanır. Məsələn, İ.Şopen variantının əlyazması bu baxımdan əhəmiyyət kəsb edir. Məlumdur ki, həmin variantı İ.Şopen Araz çayı yaxınlığında olan kiçik bir kənddən toplamışdır. O yazır ki, “Koroğlu” hərfi tərcümə edilərkən “Kor oğlu deməkdir” və bir çoxları bu fikirdədirlər ki, bu yenilməz qəhrəman tatardır (azərbaycanlıdır – Y.İ.)” (14, 26). Başqa sözlə, İ.Şopen təmsil etdiyi dövrün elminin simasında Koroğlunun tarixi şəxsiyyət olduğunu qəbul etmişdir. Bəzi türk tədqiqatçıları da Koroğlunun tarixi şəxsiyyət olması fikrindədir. Belə ki, məşhur koroğluşünas P.N.Boratav Koroğlunun milliyyətcə türk olduğunu və Cəlalilər hərəkatının iştirakçısı olduğunu (10, 39), Sadetdin Nüzhət Koroğlunun İran-Türkiyə müharibələrində fəal iştirak etdiyini, həm cəngavər, həm də şair olduğunu (10, 39), Agah Sirri Ləvənd onun XVI əsrin sonlarında yaşadığını, şair və aşıq olduğunu, özünə xalq içərisində şöhrət tapan Koroğlu təxəllüsünü götürdüyünü yazmışdır (20, 79).

Bu xüsusda başqa cür fikirlər də mövcuddur. Midhət Səndər “XVII əsrdə iki tarixi Koroğlunun (şair Koroğlu və cəngavər Koroğlu – Y.İ.) olduğu və həqiqi şair olan Koroğlunun şeirləri ilə cəngavər Koroğlunun mahnılarının qarışdığını” yazmışdır. Bu fikirlə prof. A.Nəbiyev razılaşmamışdır (10, 41). O göstərir ki, Koroğlunun cəngavər olmaqla yanaşı, həm də şair olması haqqında

S.Nüzhətin fikri daha ağlabatandır. Çünki məlumdur ki, XVI-XVII əsrlərdə Azərbaycanda aşıqlıq sənəti inkişaf etmişdir və Koroğlunun gözəl bir saz ustası, şair olması ehtimalı daha böyükdür. M.H.Təhmasibin sözləri ilə desək, "zaman keçdikcə öz dövrünün nüfuzlu şəxsiyyəti olan Koroğlu xalqın hafizəsində həm şair, həm də igid bir cəngavər olaraq həkk olunmuşdur". B.Karrıyev də Koroğlunun həm şair, həm də cəngavər olmasını mümkün sayır və öz fikrini belə əsaslandırır ki, Şərqdə bir çox görkəmli sərkərdələr şair olmuşdur.

Koroğlunun haradan olması barədə danışarkən onun Muradbəyli kəndindən olduğu haqda fikirlər söylənilir. Qeyd etməliyik ki, eposda Koroğlunun həmin kənddən olduğunu bildirən qoşma və epizodlar var (17, 147). Həqiqətən də, Təbriz yaxınlığında bu adda kiçik bir kənd olmuş və XVI-XVII əsrlərin kəndli müharibələri dövründə yerlə-yeksan edilmişdir (10, 54). Bütün bunlar eposu sözü gedən dövrün tarixi hadisələrinə bağlayır. Hətta Muradbəyli kəndinin yerlə-yeksan edilməsi belə, ümumi müharibə konteksti kimi bu tarixi kəndi Koroğlunun kəndi ilə əlaqələndirir. Yəni əldə olan, mənbələrdə qorunan, tarixçilərin, folklorşünasların və digər mütəxəssislərin araşdırmalarında üzə çıxan faktlar, mülahizələr, tutuşdurmalar bir sistem boyunca düzülür və hamısı eposu XVI-XVII əsrin tarixi hadisələrinə ünvanlandırır.

Bütün bu deyilənlər "Koroğlu" süjetinin tarixi semantikası ilə bağlı aşağıdakı nəticələrə gəlməyə imkan verir:

"Koroğlu" eposu süjeti epik və tarixi layların qovuşmasından təşkil olunmuşdur. Süjetin epik əsasını Azərbaycan-türk eposunun qəhrəmanlıq süjeti ənənəsi təşkil edir. Elmi ədəbiyyatdan da bəlli olduğu kimi, "Kitabi – Dədə Qorqud" dastanlarının öz tarixi epoxasını başa vurması ilə Azərbaycan qəhrəmanlıq eposunun yeni mərhələsi başlayır. Bu mərhələ artıq "Koroğlu" süjet nüvəsi ətrafında silsilə təşkil edir.

"Koroğlu" süjetinin tarixi semantikası Epos-Tarix (yaxud Dastan-Gerçəklik) münasibətlərinin poetik qanunauyğunluqlarına söykənir. Belə ki, gerçəkliyin epik mətnə keçməsi epikləşmə prosesini nəzərdə tutan transformasiyadır. Yəni gerçəklik şüurda qavranır və sonra bu qavranmış şüur hadisəsi epik obraza çevrilir. "Koroğlu" dastanının da Azərbaycan tarixi gerçəkliyi ilə hər cür əlaqəsi epik qanunauyğunluqlardan qıraqda deyil. Bu baxımdan, "Koroğlu" süjetinin bütün tarixi mənzərəsi əslində gerçək tarixin eposdakı obrazıdır. Bu da öz növbəsində eposun obrazlar sisteminin bir qatını təşkil etmiş olur. Obrazlar sistemi mürəkkəb olmaqla qarşılıqlı münasibətlərlə müəyyənləşən quruluşa malikdir. Dastanın obrazlar sistemində epik layla tarixi lay bir-birinə qovuşmaqla eposun obrazlaşma səviyyəsinin mürəkkəb quruluşunu təqdim etmiş olur. Epik lay ənənə ilə gələn, Azərbaycan eposunun türk başlanğıcından gələn qatdır. Tarixi lay isə ona nisbətən müasirdir. Tarixi gerçəklik layı eposun öz müasir zamanı ilə əlaqələrini nümayiş etdirir. Ancaq bütün bunlar obrazlar sistemindən, daha doğrusu, obrazlaşmanın mürəkkəb sistemindən qıraqda deyil. Çünki eposdan görünən tarixi gerçəklik bütün

hallarda epik ümumiləşdirmədir. Heç təsadüfi deyildir ki, “Koroğlu” dastanının tarixi hadisələrlə bağlılığını araşdıran tədqiqatçılar XVI-XVII əsrlərə aid çoxlu tarixi hadisələri misal gətirirlər. Bu, o deməkdir ki, tarixi hadisələr eposa elə-belə, birbaşa düşmür. Epikləşmənin, obrazlaşmanın “süzgəcindən” keçir. Bu prosesdə eposun tipikləşdirmə xassəsini nəzərə almamaq olmaz. Epos gerçəklikdəki hadisələri obrazlaşdırarkən onları tipikləşdirir. Tipoloji olanı, yəni ardıcıl olaraq təkrarlanıb quruluş elementinə çevriləni qəbul edir. Bu səbəbdən, gerçək hadisənin eposdakı inikası onun tipikləşdirilmiş obrazıdır.
“Koroğlu” eposunun təşəkkülü, formalaşması və epik “böyümə” keçirməsi, tədqiqatlardan da gördüyümüz kimi, XVI-XVII əsrlərin hadisələri əsasında baş verir. Eposdakı şəxs adları (antroponimlər), yer adları (toponimlər), çay, su adları (hidronimlər), Koroğlunun mübarizə apardığı antiqəhrəmanların sosial-inzibati mənsubiyyəti (paşalar, xotkar, xanlar), epik mübarizənin siyasi və sosial səciyyəsi inadla eposdakı reallığı bu əsrlərdə baş vermiş xalq hərəkatı ilə bağlayır. Bütün bunlar belə bir nəticəyə gəlməyə imkan verir ki, eposun təşəkkül, formalaşma çağı bu əsrlərdəki hadisələrin təsiri altında baş vermişdir.

“Koroğlu” eposunda tarixi layın güclü fon təşkil etməsi eposun qəhrəmanlıq tipi ilə xüsusilə bağlıdır. Belə bir elmi qənaətə gəlmək olur ki, eposa tarixi layın qovuşmasının səbəbləri “Koroğlu” dastanının qəhrəmanlıq ruhu ilə XVI-XVII əsrlərin qovşağında baş vermiş hadisələrin qəhrəmanlıq ruhunun üst-üstə düşməsidir. Eposla tarix, epik qəhrəmanlıqla real qəhrəmanlıq tarixin bu çağında qovuşmuşdur. “Koroğlu” dastanı azadlıq, sosial ədalət uğrunda mübarizə aparan xalq kütlələrinin mənəvi güvənc yeri olmuş, xalq öz eposu ilə nəfəs almış, ondan güc almış və öz növbəsində onu gücləndirmişdir. Sonuncu cümlə Tarix və Eposun qarşılıqlı münasibətlərini nəzərdə tutur. Yəni “Koroğlu” eposu qəhrəmanı Koroğlunun yenilməz qəhrəman olması, məğlubedilməz igid olması xalq kütlələrini mübarizələrə ruhlandırdığı, onları mənəvi baxımdan gücləndirdiyi, zənginləşdirdiyi kimi, xalq da öz növbəsində gerçək qəhrəmanların şücaətlərini tərənnüm edərək eposu yeni qollarla zənginləşdirmişdir. Bu, eposun tarixi gücüdür və “Koroğlu” eposu öz tarixi gücünü, qənaətimizə görə, XVI-XVII əsrlərin xalq hərəkatından almışdır.

## ƏDƏBİYYAT


1. Путилов Б.Н. Героический эпос и действительность. Л., «Наука», 1988, 224 с.
2. Жирмунский В.М., Зарифов Х.Т. Узбекский народный героический эпос. М., Гослитиздат, 1947, 520 с
3. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972, 398 s.
4. Azərbaycan tarixi. 7 cilddə, III c., Bakı, Elm, 1999, 534 s.
5. Петрушевский И.П. Азербайджан в XVI-XVII веках. – Сб. статей по ист. Азерб., вып.1, Б., Азернешр, 1946, с.145-310
6. Короглы Х.Г., Набиев А.М. Азербайджанский героический эпос. Б., «Язычы», 1996, 305 с.

7. Caferoğlu A. Azerbaycan Dili ve Edebiyatının Dönüm Noktaları. – Azərbaycan Kültür Derneyi Neşrlerinden, Ankara, 1951
8. Петрушевский И.П. Очерки из истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Л., Изд. ЛГУ, 1949, 384 с.
9. Fərhadov F. "Koroğlu" dastanının Zaqafqaziya versiyası. Doktorluq dissertasiyasının avtoreferatı. B., 1968, 74 s.
10. Nəbiyev A.M. "Koroğlu" dastanında Koroğlu surəti (Azərbaycan və özbək materialları əsasında). Namizədlik dissertasiyası. B., 1970, 163 s.
11. Петрушевский И.П. Восстание ремесленников и городской бедноты в Табризе в 1571-1573 гг. – Сб. статей по ист. Азерб., вып. 1, Б., 1949, с.210-354
12. Koroğlu. 3-cü çapı. Tərtib edəni M.H.Təhmasib. B., Az SSR EA Nəşriyyatı, 1959, 508 s.
13. Брагинский И.С. О таджикском эросе «Гургули» и его художественных особенностях – «Вопросы изучения эпоса народов СССР». М., 1958, с.26-149
14. Каррыев Б.А. Эпические сказания о Кероглы у тюркоязычных народов. М., «Наука», 1968, 258 с.
15. Набиев А.М. Взаимосвязь Азербайджанского и узбекского фольклора. Б., «Язычы», 1986, 288 с.
16. Специфика фольклорных жанров. М., 1973, 324 с.
17. Koroğlu. Tərtib edəni M.H.Təhmasib, redaktoru H.Araslı. 2-ci nəşri. B., Az SSR EA Nəşriyyatı, 1956, 456 s.
18. Петрушевский И.П. Очерки из истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Л., Изд. ЛГУ, 1949, 384 с.
19. Koroğlu. Tərtib edəni M.H.Təhmasib, redaktoru H.Araslı. B., Az SSR EA nəşriyyatı, 1949, 482 s.
20. Fərhadov F. «Koroğlu» dastanının Zaqafqaziya versiyası. Doktorluq dissertasiyası. B., 1968, 354 s.